**UOT 33.43.657**

***Pərvin Elman qızı MUXTAROVA***
***Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti,***
***iqtisad üzrə fəlsəfə doktoru***
***AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri.***
***E-mail:muxtarovapervin65@gmail.com***

***Qurban Rauf oğlu MİRZƏYEV***
***Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi,***
***iqtisad üzrə fəlsəfə doktoru***
***AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri.***
***E-mail:qurbanmirzeyev6@gmail.com***
**https://doi.org/10.30546/4.71.730.02.2026.1107**

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ LİZİNQ ƏMƏLİYYATLARININ UÇOTUNUN APARILMASINDA ƏSAS PROBLEMLƏR

***Xülasə***

**Tədqiqatın məqsədi** – Azərbaycanda kənd təsərrüfatı sahəsində lizinq əməliyyatlarının mühasibat uçotu ilə bağlı mövcud problemləri elmi-praktik baxımdan araşdırmaqdır. Tədqiqat xüsusi olaraq lizinq əməliyyatlarının uçotda tanınması, amortizasiya hesablamaları, lizinq ödənişlərinin uçotu, vergi və mühasibat uçotu arasındakı uyğunsuzluqlar və kadr potensialının çatışmazlığı kimi məsələlərə yönəlmişdir.

**Tədqiqatın metodologiyası** – Tədqiqatın aparılmasında analiz, sintez, müqayisə, sistemləşdirmə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda "Aqroservis" Açıq Səhmdar Cəmiyyəti (ASC) üzrə real praktik nümunələr əsasında kənd təsərrüfatında lizinq mexanizminin tətbiqində yaranan uçot çətinlikləri qiymətləndirilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Məqalədə əldə edilən nəticələr kənd təsərrüfatı sahəsində lizinq əməliyyatlarının mühasibat uçotunun təkmilləşdirilməsi, normativ-hüquqi bazanın inkişaf etdirilməsi və metodiki yanaşmaların formalaşdırılması üçün istifadə oluna bilər.

**Tədqiqatın nəticələri** – Tədqiqatın nəticələri göstərir ki, lizinq əməliyyatlarının uçotunda mövcud olan normativ və metodoloji boşluqlar maliyyə hesabatlarının keyfiyyətinə mənfi təsir göstərir və vergi uçotu ilə mühasibat uçotu arasında ziddiyyətlər yaradır. Bu baxımdan lizinq uçotunun daha sistemli və şəffaf şəkildə təşkili zəruridir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Tədqiqatın elmi yeniliyi kənd təsərrüfatı lizinqi sahəsində uçot problemlərinin "Aqroservis" ASC-nin fəaliyyəti üzrə real praktiki nümunələr əsasında kompleks şəkildə araşdırılması, habelə mövcud problemlərin aradan qaldırılması istiqamətində konkret təkliflərin irəli sürülməsi ilə xarakterizə olunur.

***Açar sözlər: kənd təsərrüfatı, lizinq, mühasibat uçotu, Aqroservis ASC, amortizasiya.***

## *Giriş*

Kənd təsərrüfatı Azərbaycanda strateji əhəmiyyətə malik əsas sahələrdən biri hesab olunur. Əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda sosial-iqtisadi inkişafın sürətləndirilməsi və məşğulluğun artırılması dövlət siyasətinin prioritet istiqamətləri sırasındadır. Bu məqsədlə son illərdə kənd təsərrüfatının inkişafına yönəlmiş çoxsaylı dövlət proqramları, subsidiyalar və institusional mexanizmlər tətbiq olunmuşdur.

Bununla yanaşı, kənd təsərrüfatı sahəsinin davamlı inkişafı əhəmiyyətli maliyyə resursları, müasir texnologiyaların tətbiqi və istehsal proseslərinin modernləşdirilməsini tələb edir. Fermer təsərrüfatlarının əksəriyyətinin maliyyə imkanlarının məhdud olması, xüsusilə kənd təsərrüfatı

texnikasının, suvarma sistemlərinin, emal və digər istehsal avadanlıqlarının əldə edilməsini çətinləşdirir. Nəticədə, istehsalın səmərəliliyi azalır, məhsuldarlıq istənilən səviyyəyə çatmır və rəqabət qabiliyyəti zəifləyir.

Mövcud problemlərin həllində lizinq mexanizmi mühüm maliyyə aləti kimi çıxış edir. Lizinq vasitəsilə fermerlər irihəcmli ilkin kapital qoyuluşu olmadan uzunmüddətli və güzəştli şərtlərlə texnika və avadanlıqlarla təmin olunur, ödənişləri isə mövsümi gəlirlərə uyğun şəkildə həyata keçirə bilirlər. Bu mexanizm həm istehsal prosesinin fasiləsizliyini təmin edir, həm də kənd təsərrüfatı subyektlərinin maliyyə yükünü əhəmiyyətli dərəcədə azaldır.

Azərbaycanda kənd təsərrüfatı sahəsində lizinq əməliyyatlarının həyata keçirilməsində əsas institusional strukturlardan biri uzun illər “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti olmuş, 2020-ci ildən etibarən fəaliyyətini “Aqroservis” ASC adı altında davam etdirmişdir. Sözügedən qurum fermerlərin texnika və avadanlıqlarla təmin olunmasında mühüm rol oynamaqla yanaşı, lizinq əməliyyatlarının uçotu və maliyyə hesabatlılığı baxımından da spesifik xüsusiyyətlərə malikdir. Məqalədə kənd təsərrüfatı sahəsində lizinq əməliyyatlarının uçotunda mövcud problemlər elmi-praktik aspektdən təhlil ediləcək, həmçinin “Aqroservis” ASC-nin fəaliyyəti əsasında konkret nümunələr təqdim olunacaqdır.

**Lizinq əməliyyatlarının iqtisadi mahiyyəti və kənd təsərrüfatında rolu**

Lizinq əməliyyatlarının iqtisadi mahiyyəti və kənd təsərrüfatında roluna gəldikdə, demək olar ki, lizinq müəyyən müddət ərzində aktivin istifadəsi qarşılığında ödənişlərin həyata keçirilməsi prinsipi ilə fəaliyyət göstərən maliyyə mexanizmidir. Bu, kənd təsərrüfatında əhəmiyyətli rol oynayır, çünki yüksək dəyərli texnikanı birbaşa kreditlə almaq bir çox fermer üçün çətindir.[3]

Kənd təsərrüfatında lizinqin praktik əhəmiyyəti aşağıdakı şəkildə ifadə edilə bilər: Maliyyə resurslarının optimallaşdırılması: Fermerlər lizinq vasitəsilə texnikanı ilkin böyük kapital yatırımı olmadan əldə edirlər; Mövsümi ödənişlərə uyğunlaşma: Kənd təsərrüfatında pul vəsaitləri məhsulun satışı ilə bağlı dövrlərdə yaranır; lizinq ödənişləri bu dövrlərlə uyğunlaşdırıla bilir; Texnologiyaların yenilənməsi: Yeni avadanlıqların istifadəsi nəticəsində məhsuldarlığın artırılmasına və istehsal səmərəliliyinin yüksəldilməsinə şərait yaranır.

Azərbaycanda “Aqroservis” ASC kimi dövlət dəstəyi ilə fəaliyyət göstərən lizinq subyekti kənd təsərrüfatı sahəsində bu mexanizmin təşviqinə mühüm töhfələr vermişdir. 2005-ci ildən etibarən ASC vasitəsilə yüzlərlə fermer və aqrar sahibkar güzəştli şərtlərlə texnika və avadanlıq əldə etmişdir.

Lizinq əməliyyatlarının mühasibat uçotu üçün normalar müəyyən edilmiş olsa da, bu normalar kənd təsərrüfatının özünəməxsus xüsusiyyətlərini tam əks etdirmir. Azərbaycanda mühasibat və vergi uçotu siyasəti aşağıdakı əsas sənədlərlə tənzimlənir: Mühasibat Uçotu haqqında Qanun; Vergi Məcəlləsi; AR-in Mülki Məcəlləsi; Kənd təsərrüfatı texnikalarının lizinqi üzrə Nazirlər Kabinetinin qərarları.

Bu sənədlər lizinq əməliyyatlarının əsas prinsiplərini müəyyən etsə də, kənd təsərrüfatının dövri xarakteri, mövsümi əməliyyatlar və subsidiyaların xüsusi təsirləri ilə bağlı detallı metodiki göstərişlər çox məhduddur. Məsələn, Milli Mühasibat Uçotu ilə beynəlxalq standartlar (IFRS 16) arasında harmonizasiya tam olmadığından, lizinq əməliyyatlarının uçotda düzgün tanınması və hesablanması praktiki problemlərə gətirib çıxarır.[1];[2]

Lizinqin balansda tanınması məsələsi kənd təsərrüfatı müəssisələrinin mühasibat uçotunda ciddi metodoloji və praktiki çətinliklər yaradır. Bu çətinliklərin əsas səbəblərindən biri maliyyə lizinqi ilə əməliyyat (operativ) lizinqinin mahiyyət etibarilə düzgün ayırd edilməməsidir. Bir çox hallarda lizinq müqavilələrinin şərtləri ətraflı təhlil olunmadan, yalnız hüquqi forma əsasında qiymətləndirilir və nəticədə lizinq münasibətlərinin iqtisadi məzmunu nəzərə alınmır.

Təcrübədə tez-tez rast gəlinən hallardan biri ondan ibarətdir ki, müəssisələr lizinqə götürülmüş aktivləri balansda əsas vəsait kimi tanımır, onları sadəcə icarəyə götürülmüş əmlak qismində uçota alır və balansdankənar hesablarda qeydə alırlar. Halbuki, maliyyə lizinqi zamanı aktiv üzərində mülkiyyətə xas risk və faydaların əhəmiyyətli hissəsi lizinq alan tərəfə keçir və bu, həmin aktivin

balansda tanınmasını zəruri edir.

Lizinq əməliyyatlarının balansda düzgün əks etdirilməməsi bir sıra mənfi nəticələrə səbəb olur. İlk növbədə, lizinqə götürülmüş aktivlər və onlarla bağlı öhdəliklər balansda göstərilmədiyi üçün müəssisənin maliyyə vəziyyəti real vəziyyəti tam əks etdirmir. Bu isə maliyyə hesabatlarının şəffaflığını və etibarlılığını azaldır. Eyni zamanda, aktiv balansda tanınmadıqda amortizasiya xərcləri düzgün hesablanmır, nəticədə istehsal xərclərinin strukturu təhrif olunur.

Bununla yanaşı, lizinq ödənişlərinin uçotu zamanı faiz və əsas borc hissələrinin ayrılmaması mənfəət və zərər hesabatında səhv göstəricilərin formalaşmasına gətirib çıxarır. Nəticə etibarilə, müəssisənin maliyyə nəticələri, rentabellik səviyyəsi və iqtisadi səmərəliliyi obyektiv qiymətləndirilmir ki, bu da idarəetmə qərarlarının qəbulunda və investisiya cəlbediciliyinin müəyyən edilməsində əlavə risklər yaradır. Məsələn, “Aqroservis” ASC-nin lizinqə verdiyi kombayn, traktor və digər texnikalar üzərində aparılan maliyyə uçotu praktikada mühasiblər tərəfindən müxtəlif üsullarla həyata keçirilir ki, bu da vahid standartın olmamasını göstərir. [4, s.228]

Kənd təsərrüfatı texnikası intensiv istifadəyə malik aktivlər olduğu üçün amortizasiya düzgün hesablanmalıdır. Amma praktikada aşağıdakı problemlər ortaya çıxır: İlkin dəyərin düzgün müəyyən edilməməsi: Lizinq müqaviləsində göstərilən müqavilə dəyəri ilə texnikanın faktiki bazar dəyəri arasında fərqlər ola bilər və bu, amortizasiya bazasının təhrifinə səbəb olur; Faydalı ömrün müəyyən edilməməsi: Texnikanın əsl istifadə müddəti və kənd təsərrüfatı şəraitində istifadənin xüsusiyyətləri nəzərə alınmadan standart faydalı müddətlər tətbiq olunur; Mövsümi istifadə nəzərə alınmır: Amortizasiya illik əsasla hesablandığı üçün texnikanın faktiki mövsümi istifadəsi ilə dövri nəticələr arasında uyğunsuzluq yaranır. Bu çətinliklər maliyyə hesabatlarının keyfiyyətinə mənfi təsir edir və uzunmüddətli maliyyə planlaşdırmasını çətinləşdirir.

Lizinq ödənişlərinin əsas borc və faiz hissəsinə düzgün bölünməsi mühasibat uçotunun əsas tələblərindən biridir. Maliyyə lizinqi zamanı lizinq ödənişlərinin bir hissəsi əsas borcun ödənilməsinə, digər hissəsi isə faiz xərclərinə aid edilməlidir. Lakin praktikada kənd təsərrüfatı müəssisələrinin əksəriyyətində bu bölgü aparılmır və lizinq üzrə ödənişlər bütövlükdə cari xərclər kimi uçota alınır. Nəticədə müəssisələrin maliyyə göstəriciləri, xüsusilə xərclərin strukturu, mənfəətlilik səviyyəsi və maliyyə dayanıqlığı real vəziyyəti əks etdirmir.

Lizinq ödənişlərinin düzgün bölgüsünün aparılmaması eyni zamanda vergi öhdəliklərinin yanlış formalaşmasına səbəb olur. Faiz xərclərinin və əsas borcun ayrılmaması mənfəət vergisinin hesablanmasında səhvlərə, həmçinin vergi tutulan mənfəətin təhrif olunmasına gətirib çıxarır. Bu cür uyğunsuzluqlar mühasibat uçotu ilə vergi uçotu arasında ciddi fərqlərin yaranmasına və nəticə etibarilə müəssisələrlə vergi orqanları arasında mübahisələrin meydana çıxmasına şərait yaradır.

Vergi və mühasibat uçotu qaydaları arasında mövcud olan uyğunsuzluqlar kənd təsərrüfatı sahəsində lizinq əməliyyatlarının uçotunu daha da mürəkkəbləşdirir. Bu uyğunsuzluqlar bir neçə əsas istiqamətdə özünü göstərir. İlk növbədə, lizinq əməliyyatları üzrə əlavə dəyər vergisinin (ƏDV) hesablanması və vergi bəyannaməsində əks etdirilməsi məsələsi praktikada birmənalı şəkildə tətbiq edilmir. Lizinq obyektinin dəyəri, lizinq ödənişlərinin strukturu və müqavilə şərtləri nəzərə alınmadan ƏDV-nin hesablanması maliyyə hesabatlarında və vergi uçotunda səhvlərə səbəb olur.

Digər mühüm məsələ amortizasiya ayırmaları ilə bağlıdır. Vergi məqsədləri üçün müəyyən edilmiş amortizasiya normativləri ilə mühasibat uçotu standartlarına uyğun hesablanan amortizasiya normaları arasında fərqlərin mövcudluğu zaman fərqlərinin yaranmasına səbəb olur. Bu isə təxirə salınmış vergi aktivləri və öhdəliklərinin formalaşmasını zəruri etsə də, praktikada çox vaxt bu məsələ nəzərə alınmır.

Bundan əlavə, lizinq xərclərinin tanınma vaxtı ilə bağlı fərqlər də mühüm problemlərdən biridir. Mühasibat uçotunda lizinq xərcləri iqtisadi məzmun əsasında tanındığı halda, vergi uçotunda müəyyən şərtlərin mövcudluğu tələb olunur ki, bu da gəlir və xərclərin tanınmasında zaman fərqlərinə səbəb olur. Qeyd olunan bütün bu məsələlər bir çox hallarda kənd təsərrüfatı müəssisələri ilə vergi orqanları arasında mübahisələrin yaranmasına, əlavə yoxlamalara və maliyyə risklərinin

artmasına gətirib çıxarır.

Regionlarda fəaliyyət göstərən fermer təsərrüfatlarının çoxunda mühasibat uçotu peşəkar səviyyədə aparılmır və ya bu iş ixtisaslı kadrlar tərəfindən həyata keçirilməyir. Bunun nəticəsində lizinq əməliyyatlarının düzgün uçotu və hesabatların hazırlanması çətinləşir. Eyni zamanda metodiki vəsaitlərin məhdudluğu və təlim proqramlarının yetərsizliyi praktikada bu sahədə səhvlərin artmasına gətirib çıxarır.

“Aqroservis” Açıq Səhmdar Cəmiyyəti Azərbaycanda kənd təsərrüfatı sahəsində lizinq mexanizminin əsas institusional daşıyıcılarından biri kimi çıxış edir. Cəmiyyətin əsas fəaliyyəti fermer və aqrar müəssisələrin kənd təsərrüfatı texnikası, kombaynlar, traktorlar, suvarma sistemləri, emal avadanlıqları və digər xüsusi təyinatlı aktivlərlə lizinq yolu ilə təmin edilməsindən ibarətdir. Bu fəaliyyət dövlətin aqrar sahəyə dəstək siyasətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, kənd təsərrüfatı istehsalının modernləşdirilməsinə və məhsuldarlığın artırılmasına xidmət edir.

“Aqroservis” ASC-nin fəaliyyətinin spesifikliyi lizinqə təqdim olunan aktivlərin müxtəlifliyi və yüksək dəyəri ilə xarakterizə olunur. Müxtəlif texniki xüsusiyyətlərə, istismar müddətlərinə və mövsümi istifadə intensivliyinə malik aktivlərin lizinq əməliyyatları üzrə uçotu mühasibat baxımından olduqca mürəkkəbdir. Xüsusilə maliyyə lizinqi müqavilələri üzrə aktivlərin balansda tanınması, lizinq öhdəliklərinin düzgün qiymətləndirilməsi və amortizasiya siyasətinin müəyyən edilməsi ciddi metodoloji çətinliklər yaradır.

Praktikada müşahidə olunan əsas problemlərdən biri lizinqə verilən aktivlərin amortizasiya müddətlərinin vahid yanaşma əsasında müəyyən edilməməsidir. Traktor və kombaynlar yüksək fiziki aşınmaya məruz qalan, mövsümi istifadə olunan aktivlər olduğu halda, suvarma sistemləri və digər xüsusi avadanlıqlar uzunmüddətli istifadə üçün nəzərdə tutulur. Bu fərqliliklər nəzərə alınmadıqda amortizasiya xərcləri real istismar səviyyəsini əks etdirmir və maliyyə nəticələrinin təhrif olunmasına səbəb olur.

Digər mühüm problem lizinq müddətinin sonunda aktivlərin qalıq dəyərinin düzgün qiymətləndirilməməsi ilə bağlıdır. Qalıq dəyərinin obyektiv müəyyən olunmaması amortizasiya məbləğinin səhv hesablanmasına, aktivlərin balans dəyərinin süni şəkildə artırılmasına və ya azaldılmasına gətirib çıxarır. Bu isə maliyyə hesabatlarının etibarlılığını zəiflədir və idarəetmə qərarlarının qəbulunda risklər yaradır.

“Aqroservis” ASC-nin fəaliyyəti çərçivəsində dövlət subsidiyaları və güzəştlər mühüm rol oynadığından, bu maliyyə dəstəyi mexanizmlərinin uçotda düzgün əks etdirilməsi də əlavə çətinliklər yaradır. Subsidiyaların aktivin ilkin dəyərindən çıxılması, gəlir kimi tanınması və ya ayrı komponent kimi uçota alınması məsələlərində vahid metodoloji yanaşmanın olmaması maliyyə hesabatlarında uyğunsuzluqlara səbəb olur.

Bundan əlavə, lizinq ödənişlərinin əsas borc və faiz hissələrinə düzgün bölünməməsi “Aqroservis” ASC ilə lizinq alan təsərrüfat subyektləri arasında uçot fərqlərinin yaranmasına gətirib çıxarır. Bu fərqlər həm mühasibat uçotunda, həm də vergi uçotunda mənfəət göstəricilərinin yanlış formalaşmasına və nəticə etibarilə vergi orqanları ilə mübahisələrin yaranmasına zəmin yaradır.

Nəhayət, “Aqroservis” ASC-nin lizinq əməliyyatlarının uçotunda qarşılaşılan problemlər mühasiblərdən yalnız mühasibat uçotu standartlarını dərindən bilməsini deyil, eyni zamanda kənd təsərrüfatı texnikasının texniki xüsusiyyətləri, dövlət dəstək mexanizmləri və vergi qanunvericiliyinin tətbiqi üzrə yüksək ixtisas və praktiki təcrübə tələb edir. Mövcud çatışmazlıqlar lizinq uçotunun təkmilləşdirilməsinin və bu sahədə normativ-metodoloji bazanın gücləndirilməsinin zəruriliyini bir daha aktuallaşdırır. Bu kimi problemlərin həlli yolları kimi aşağıdakı təklifləri göstərmək olar:

- Lizinq əməliyyatlarında dövlət subsidiyaları və güzəştlər kənd təsərrüfatı subyektlərinin maliyyə yükünün azaldılmasında mühüm rol oynayır. Məsələn, kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20 faizinin lizinq alan tərəfindən ödənilməsi şərti ilə qalan məbləğin 40 faizinə dövlət büdcəsi hesabına güzəşt tətbiq edilir. Bu güzəşt lizinq müqaviləsinin iqtisadi mahiyyətinə birbaşa təsir göstərdiyi üçün mühasibat uçotunda ayrıca komponent kimi tanınmalı, dövlət subsidiyası

kimi uçota alınmalı və maliyyə hesabatlarında şəffaf şəkildə açıqlanmalıdır. Güzəştlərin uçotda düzgün əks etdirilməməsi aktivlərin ilkin dəyərinin, lizinq öhdəliklərinin və gəlirlərin təhrif olunmasına səbəb ola bilər.

- Milli mühasibat uçotu sisteminin beynəlxalq mühasibat uçotu standartları ilə, xüsusilə IFRS 16 “Lizinq” standartı ilə daha yaxından uyğunlaşdırılması zəruridir. Bu məqsədlə kənd təsərrüfatı lizinqinin spesifik xüsusiyyətlərini nəzərə alan metodiki göstərişlərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Sözügedən göstərişlər lizinq əməliyyatlarının tanınması, ölçülməsi, təqdimatı və açıqlanması məsələlərində mühasiblər üçün vahid yanaşmanın formalaşmasına şərait yaradacaqdır.
- Regionlarda fəaliyyət göstərən mühasiblər üçün ixtisasartırma proqramlarının təşkili də xüsusi aktuallıq daşıyır. Lizinq uçotu üzrə təlim materiallarının hazırlanması, praktiki nümunələrə əsaslanan seminar və treninqlərin keçirilməsi mühasiblərin nəzəri biliklərinin praktik bacarıqlarla möhkəmləndirilməsinə imkan verəcəkdir. Bu, xüsusilə kənd təsərrüfatı müəssisələrində lizinq əməliyyatlarının uçotunda yol verilən səhvlərin azaldılmasına müsbət təsir göstərəcəkdir.
- Azərbaycanda kənd təsərrüfatı lizinq əməliyyatlarının elektron uçotunun tətbiqi uçot prosesinin operativliyini, dəqiqliyini və şəffaflığını əhəmiyyətli dərəcədə artıracaqdır. Elektron uçot sistemləri vasitəsilə lizinq müqavilələrinin, ödəniş cədvəllərinin, subsidiyaların və güzəştlərin vahid platformada izlənilməsi mümkün olacaq, bu isə həm dövlət orqanları, həm də təsərrüfat subyektləri üçün analitik imkanları genişləndirəcəkdir.
- Vergi və mühasibat uçotu arasında mövcud olan uyğunsuzluqların aradan qaldırılması məqsədilə normativ-hüquqi sənədlərdə müvafiq dəyişikliklərin edilməsi zəruridir. Eyni lizinq əməliyyatının həm vergi uçotunda, həm də mühasibat hesabatlarında iqtisadi məzmununa uyğun və bir-biri ilə uzlaşan şəkildə əks etdirilməsi müəssisələr ilə vergi orqanları arasında mübahisələrin azalmasına, maliyyə hesabatlarının etibarlılığının yüksəldilməsinə və bütövlükdə aqrar sektorun maliyyə intizamının gücləndirilməsinə xidmət edəcəkdir.

### *Nəticə*

Azərbaycan kənd təsərrüfatında lizinq mexanizmi fermer təsərrüfatları və aqrar müəssisələr üçün mühüm maliyyə aləti kimi çıxış edir və onların maddi-texniki bazasının möhkəmləndirilməsində əvəzsiz rol oynayır. Lizinq vasitəsilə istehsal subyektləri iri həcmli ilkin maliyyə vəsaiti cəlb etmədən müasir kənd təsərrüfatı texnikası və avadanlıqları əldə etmək imkanı qazanır, bu isə istehsal proseslərinin fasiləsizliyini və məhsuldarlığın artımını təmin edir.

Bununla yanaşı, praktikada lizinq əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi zamanı normativ-hüquqi bazanın qeyri-kafi tətbiqi, metodoloji yanaşmalardakı fərqliliklər və mühasiblərin praktiki bilik səviyyəsi ilə bağlı problemlər mövcuddur. Xüsusilə lizinq müqavilələrinin uçotu, lizinqə götürülmüş aktivlərin balansda tanınması, amortizasiya və lizinq ödənişlərinin düzgün bölgüsü məsələlərində ciddi uyğunsuzluqlar müşahidə edilir.

“Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyəti bu problemlərin real təzahürlərini aydın şəkildə nümayiş etdirir. Sözügedən qurumun kənd təsərrüfatı subyektləri ilə həyata keçirdiyi lizinq əməliyyatlarının uçotunda mövcud çatışmazlıqlar maliyyə hesabatlarının etibarlılığına və müqayisəliliyinə mənfi təsir göstərir. Bu isə həm müəssisənin daxili idarəetmə qərarlarının qəbulunu çətinləşdirir, həm də dövlət tərəfindən ayrılan subsidiyaların və güzəştlərin effektivliyinin obyektiv qiymətləndirilməsinə mane olur.

Lizinq əməliyyatlarının uçotunun təkmilləşdirilməsi kənd təsərrüfatı sahəsində maliyyə şəffaflığının artırılmasına, dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsinə və investisiya mühitinin yaxşılaşdırılmasına şərait yaradacaqdır. Nəticə etibarilə, mühasibat uçotunun beynəlxalq standartlara uyğun təşkili aqrar sektorun dayanıqlı inkişafına və rəqabət qabiliyyətinin gücləndirilməsinə mühüm töhfə verəcəkdir.

## ƏDƏBİYYAT

1. “Lizinq xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı-1994
2. IFRS 16 – “Lizinq” (Beynəlxalq Maliyyə Hesabatı Standartı)
3. Aqroservis.gov.az
4. R.Fətullayev “Beynəlxalq mühasibat uçotunun əsasları”. Bakı-2019. “Nurlar” nəşriyyat və poliqrafiya mərkəzi, 320 səh.

***Парвин Эльман кызы Мухтарова***
***доцент, кандидат экономических наук***
***Азербайджанский Государственный Аграрный Университет***
***AZ2000, Гянджа, Азербайджан***
***E-mail: muxtarovapervin65@gmail.com***

***Курбан Рауф оглу Мирзоев***
***Старший преподаватель, кандидат экономических наук***
***Азербайджанский Государственный Аграрный Университет***
***AZ2000, Гянджа, Азербайджан***
***E-mail: qurbanmirzeyev6@gmail.com***

## Основные проблемы бухгалтерского учета лизинговых операций в сельскохозяйственном секторе Азербайджана

### Резюме

**Цель исследования.** Целью исследования является научно-практический анализ основных проблем, существующих в бухгалтерском учете лизинговых операций в сельскохозяйственном секторе Азербайджана. В частности, рассматриваются вопросы признания лизинговых операций, начисления амортизации, учета лизинговых платежей, несоответствий между налоговым и бухгалтерским учетом, а также недостаточности кадрового потенциала.

**Методология исследования.** В процессе исследования использовались методы анализа, синтеза, сравнения, систематизации и обобщения. Одновременно на основе практических примеров деятельности ОАО “Агросервис” были проанализированы учетные трудности, возникающие при применении лизингового механизма в сельскохозяйственном секторе.

**Практическая значимость исследования.** Практическая значимость исследования заключается в возможности использования полученных результатов в процессе совершенствования бухгалтерского учета лизинговых операций в сельском хозяйстве, развития нормативно-правовой базы и формирования методических подходов.

**Результаты исследования.** Результаты исследования показывают, что существующие нормативные и методологические пробелы в учете лизинговых операций отрицательно влияют на качество финансовой отчетности и приводят к противоречиям между налоговым и бухгалтерским учетом. В этой связи возникает необходимость более системной и прозрачной организации учета лизинга.

**Оригинальность и научная новизна исследования.** Научная новизна исследования заключается в комплексном исследовании проблем учета сельскохозяйственного лизинга на основе реальных практических примеров деятельности ОАО “Агросервис”, а также в выдвижении конкретных предложений, направленных на устранение выявленных проблем.

***Ключевые слова: сельское хозяйство, лизинг, бухгалтерский учет, ОАО “Агросервис”, амортизация.***

***Parvin Elman Muxtarova***
***Associate Professor, PhD in Economics***
***Azerbaijan State Agrarian University***
***AZ2000, Ganja, Azerbaijan***
***E-mail: muxtarovapervin65@gmail.com***

***Gurban Rauf Mirzayev***
***Senior Lecturer, PhD in Economics***
***Azerbaijan State Agrarian University***
***AZ2000, Ganja, Azerbaijan***
***E-mail: qurbanmirzeyev6@gmail.com***

**Main problems in accounting for leasing operations in the agricultural sector of Azerbaijan**

***Summary***

**Purpose of the Research**. The purpose of the research is to conduct a scientific and practical analysis of the main problems existing in the accounting of leasing operations in the agricultural sector of Azerbaijan. In particular, issues such as the recognition of leasing transactions, calculation of depreciation, accounting of lease payments, inconsistencies between tax accounting and financial accounting, as well as weaknesses in human resource capacity are examined.

**Research Methodology.** In the course of the research, methods such as analysis, synthesis, comparison, systematization, and generalization were applied. At the same time, practical examples based on the activities of "Agroservis" were used to analyze the accounting difficulties arising during the application of the leasing mechanism in the agricultural sector.

**Practical Significance of the Research.** The practical significance of the research is characterized by the possibility of using the results obtained in the article in the process of improving the accounting of leasing operations in the agricultural sector, developing the regulatory and legal framework, and forming methodological approaches.

**Research Results.** The results of the research show that existing regulatory and methodological gaps in the accounting of leasing operations negatively affect the quality of financial reporting and create inconsistencies between tax accounting and financial accounting. In this regard, there is a necessity to organize leasing accounting in a more systematic and transparent manner.

**Originality and Scientific Novelty of the Research.** The scientific novelty of the research lies in the comprehensive analysis of accounting problems in agricultural leasing based on real practical examples from the activities of "Agroservis"OJSC, as well as in proposing specific recommendations aimed at eliminating the existing problems.

***Key words: agriculture, leasing, accounting, Agroservis OJSC, depreciation.***